**UOT 004.04** DOI: 10.25045/jpis.v10.i1.04

***Əliquliyev R.M.[1], Alıquliyev R.M.[2], Mahmudov R.Ş.[3]***
[1,2,3]AMEA İnformasiya Texnologiyaları İnstitutu, Bakı, Azərbaycan
[1]r.alguliev@gmail.com, [2]r.aliguliyev@gmail.com, [3]rasimmahmudov@gmail.com

# AZƏRBAYCANDA PLAGİATLIQLA MÜBARİZƏ PROBLEMLƏRİ VƏ HƏLL YOLLARI

*Məqalə Azərbaycanda plagiatlıqla mübarizə problemlərinə həsr olunmuşdur. Bu problemlərin həlli üçün, ilk növbədə, milli elektron kontentin formalaşdırılması və milli antiplagiat sisteminin yaradılmasının zəruriliyi əsaslandırılmışdır. Müvafiq kontentin formalaşdırılması üçün vacib olan tədbirlər göstərilmişdir. Həmçinin milli antiplagiat sisteminin konseptual modeli təklif edilmişdir. Plagiatlıqla mübarizənin hüquqi, ictimai qınaq və maarifləndirmə metodlarının tətbiqinə dair tövsiyələr işlənmişdir. Azərbaycanda plagiatlığa yol açan sosial-psixoloji amillər analiz edilmiş və onların aradan qaldırılması üsulları göstərilmişdir.*

***Açar sözlər:*** *müəllif hüququ, plagiat, milli antiplagiat sistemi, milli kontent.*

## Giriş

Plagiatlıq müəllif hüququnun pozulmasının ənənəvi formalarından biri olsa da, İnternetin meydana gəlməsi, mətnlərin rəqəmsallaşması, nüsxələmənin asanlaşması bu problemi daha da kəskinləşdirmişdir. Hazırda plagiatlıq tələbələr, elmi tədqiqatçılar, ədiblər, jurnalistlər, musiqiçilər və digər incəsənət nümayəndələri arasında geniş yayılmışdır. Xüsusilə, elmi fəaliyyət sahəsində bu problem özünü daha qabarıq şəkildə büruzə verir.

Hüquqi ədəbiyyatda plagiat dedikdə, başqalarına məxsus ədəbiyyat, incəsənət və elmi əsərlərin, ixtiraların və s. intellektual yaradıcılıq məhsullarının bilərəkdən mənimsənilməsi başa düşülür. Lakin müəyyən qaydalara əməl etməklə ideyalardan, konsepsiyalardan, metodlardan və s. müəllif hüququ obyektlərindən istifadə edilməsi plagiatlıq sayılmır [1].

Plagiatlıq daha çox başqalarının intellektual əməyini mənimsəməklə, öz adı ilə çap etdirmək formasında baş verir. Həmçinin başqalarının əsərlərinin bir hissəsindən istifadə etməklə, yaxud mənbə göstərilmədən istinad etməklə də plagiatlığa yol verilir. Bundan başqa, hər hansı bir əsərə görə əsassız olaraq həmmüəllif adının əldə edilməsi də plagiatlıq sayılır.

Plagiatlıq yalnız çap olunmuş əsərə münasibətdə baş vermir. Hələ əlyazma şəklində olan, hələ çap olunmamış əsərin tamamilə, yaxud qismən mənimsənilməsi də plagiatlıq əməlidir.

Həmçinin elmi etikanın prinsiplərinin pozulması nəticəsində baş verən plagiatlığın İKT vasitəsi ilə avtomatik olaraq identifikasiyası həmişə mümkün deyil. Məsələn, elmi etikanın prinsiplərinin pozulmasına nümunə olaraq cəmiyyətdə “razılaşdırılmış” plagiat – müxtəlif səbəblərdən (rəhbər, dostluq, qohumluq və s.) ideyalara qeyri-qanuni, zəhmətsiz həmmüəlliflik növü yaranmışdır və yaxud iqtisadi, sosial və digər səbəblərdən cəmiyyətdə “sifarişli” plagiat – ideyalara müəyyən haqq ödəməklə müəllif və ya həmmüəllif olmaq praktikası mövcuddur. Cəmiyyətdə geniş yayılmış və qəbul edilmiş və ya adiləşmiş plagiat növü kimi qəbul edilən bu cür plagiatlıq “anonim” plagiat növüdür. Bu növ əməlləri heç bir texniki-proqram vasitələri tətbiq etməklə aradan qaldırmaq mümkün deyil [2].

Plagiatlıq hallarının qarşısının alınması üçün mənəvi-etik, hüquqi, texnoloji, maarifləndirici və s. tədbirlərin görülməsi zəruridir. İKT-nin köməyi ilə İnternet mühitində baş verən plagiatlıq halları ilə mübarizə üçün yeni üsul və vasitələr tələb edilir. Antiplagiat proqramları İnternet mühitində olan materiallar əsasında müvafiq halların aşkarlanması üçün effektli vasitədir. Lakin plagiatlıq hallarında istinad edilən bir sıra elmi əsərlər vardır ki, onların elektron versiyaları yoxdur. Ona görə də müvafiq proqramlar vasitəsi ilə heç də bütün plagiatlıq hallarını üzə çıxarmaq mümkün olmur. Bu da milli elektron elmi kontentin yaradılması məsələsini aktuallaşdırır.

Plagiatlıq təhsilin keyfiyyətinə və həqiqi elmi biliklərin əldə olunmasına böyük zərbədir. İnternet platformasında formalaşan biliklər cəmiyyətinə (iqtisadiyyatına) böyük ziyan vurur və bu

qeyri-qanuni fəaliyyətin get-gedə genişlənməsi riski artmaqdadır. Azərbaycan da qlobal miqyasda baş verən bu cür neqativ proseslərin əhatə dairəsindədir. Ölkəmizdə İnternetdən istifadə imkanlarının artması, əhali arasında ingilis və digər xarici dil biliklərinin səviyyəsinin yüksəlməsi plagiatlıq üçün əlverişli şərait yaradır.

Azərbaycan Respublikası Prezidentinin 14 iyun 2016-cı il tarixli fərmanı ilə təsdiq olunmuş "Elm haqqında" qanunda plagiatlıqla mübarizəyə dair müddəalar əks olunmuşdur [3]. Azərbaycan Respublikası Prezidentinin 9 aprel 2013-cü il tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nda isə Azərbaycan dilində antiplagiat sisteminin yaradılması nəzərdə tutulmuşdur [4].

Azərbaycanda plagiatlıqla effektli mübarizə aparmaq üçün bir sıra kompleks tədbirlərin görülməsi zəruridir. Plagiatlıqla mübarizənin müxtəlif üsulları mövcuddur. Bunlardan birincisi texnoloji mübarizə metodu – antiplagiat sistemindən istifadədir. Bu sistemin effektli işləməsi üçün bütün zəruri kontentin rəqəmsallaşdırılması vacibdir. Daha sonra müəyyən şərtlər çərçivəsində Milli Antiplagiat Sisteminin yaradılaraq, uğurla tətbiq edilə bilər. İkincisi, zəruri hüquqi baza formalaşdırılmalı, müvafiq səlahiyyət və məsuliyyət məsələləri konkret şəkildə öz həllini tapmalıdır. Nəhayət, plagiatlıq hallarını minimallaşdırmaq üçün maarifləndirmə və ictimailəşdirmə tədbirləri həyata keçirilməlidir. Məqalədə Azərbaycanda plagiatlıqla mübarizə sahəsində qeyd edilən istiqamətlərdə kompleks tədbirlərin həyata keçirilməsinə dair təkliflər irəli sürülmüşdür.

**İnternet mühitində milli kontentin formalaşdırılması məsələləri**

Plagiatlıq hallarının aşkar olunmasının əsas şərtlərindən biri İnternet mühitində milli kontentin formalaşdırılmasıdır. Belə ki, şəffaflıq və əlyetərlilik plagiatlıq imkanlarını minimuma endirir. Eyni zamanda, rəqəmsal formada olan mətnlərdə plagiatlıq elementlərini texnoloji üsullarla aşkarlamaq daha asandır. Ona görə də İnternet mühitində milli kontentin formalaşdırılması bir sıra amillərlə yanaşı, plagiatlıqla effektli mübarizə aparmaq baxımından da aktuallıq kəsb edir.

"Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"da da əsas hədəflərdən biri məhz milli kontentin inkişaf etdirilməsidir [5]. Milli Strategiyada qeyd edilir ki, informasiya cəmiyyətinin inkişafı şəraitində milli kontentin genişləndirilməsinə, ölkəmizin milli-mədəni irsinin qorunub saxlanılmasına və inkişafına, əhalinin ondan müasir texnologiyalar vasitəsilə istifadəsinə və bilik səviyyəsinin artırılmasına diqqət yetirilməsi vacibdir. Lakin həmin strategiyada milli elektron kontentin inkişaf etdirilməsi ilə bağlı nəzərdə tutulan bir sıra məsələlər onun həyata keçirilməsinə dair Dövlət Proqramında öz əksini tapmayıb [6]. Ona görə də milli kontentin inkişaf etdirilməsinə dair xüsusi dövlət proqramının qəbul edilərək həyata keçirilməsinə ehtiyac vardır.

Hazırda ölkənin müxtəlif təyinatlı və səviyyəli kitabxanalarında, arxivlərində saxlanılan materialların (kitablar, jurnallar, dissertasiyalar və s.) əksəriyyəti kompüterləşmə dövründən əvvəl çap olunduğuna görə onların elektron versiyaları mövcud deyil. Həmin materialların rəqəmsal formaya keçirilməsi çox vacibdir. Bu, genişmiqyaslı, yüksək əmək və maliyyə tutumlu iş olduğuna görə, dünyanın bir çox ölkələrində müvafiq prosesi effektli şəkildə həyata keçirmək üçün xüsusi dövlət proqramlarının yerinə yetirilməsi təcrübəsi vardır.

Ölkə üzrə müxtəlif qurumların tabeliyində olan e-kitabxanaların əksəriyyətinə İnternet vasitəsi ilə daxil olmaq mümkün deyildir. Baxmayaraq ki, müvafiq Milli Strategiyada "kitabxana, arxiv və muzeylərdə İKT-nin tətbiqinin, elektron kitabxana şəbəkəsinin genişləndirilməsi" məsələsi öz əksini tapmışdır, bu problem həll edilməyib [5].

Bundan başqa, müxtəlif nəşriyyatlar tərəfindən çap olunan kitabların elektron versiyaları, əsasən, İnternet mühitində deyildir. Elmi jurnalların əksəriyyətinin veb-saytları müasir beynəlxalq standartlara, nüfuzlu axtarış sistemlərinin tələblərinə cavab vermir. Ona görə də İnternetdə axtarış apararkən həmin jurnallarda yerləşdirilən məqalələri əldə etmək mümkün olmur.

Müəssisələrin sərəncamında olan çap materiallarının rəqəmsallaşdırılması, etibarlı saxlanılması, istismarı, arxivləşdirilməsi, onlayn mühitdə əlyetərliyinin təmin olunması və s. kimi məsələlər məsul şəxslərin qarşısında ciddi bir vəzifə kimi qoyulmur. Bu işlərin həyata keçirilməsi, əsasən, könüllü xarakter daşıyır.

Bununla əlaqədar zəruri normativ-hüquqi sənədlər, standartlar və onların tətbiqini təmin edən inzibati mexanizmlər mövcud deyildir. Qeyd edilən problemlərin aradan qaldırılması, yalnız çap şəklində olan ədəbiyyatın, kitabxanaların rəqəmsallaşdırılması və bütövlükdə, milli elektron kontentin inkişaf etdirilməsi üçün xüsusi dövlət proqramının həyata keçirilməsi zəruridir.

İlk növbədə, sərəncamlarında çap formasında ədəbiyyat olan müvafiq qurumların həmin materialları rəqəmsal formaya keçirərək İnternet mühitində əlyetərliliyini təmin etmələri vacibdir. Bunun üçün isə yüksək imkanlara malik skanerlər və digər kompüter avadanlıqları ilə təchizat məsələsi həll olunmalıdır.

Rəqəmsallaşdırılmış materialların etibarlı saxlanılması, istifadəsi və arxivləşdirilməsi üçün müvafiq qurumların tərkibində fasiləsiz fəaliyyət göstərən Data-mərkəzlərin (verilənlərin saxlanılması mərkəzləri) təşkil edilməsi vacibdir. Müəssisələrdə mühüm əhəmiyyət kəsb edən informasiya resurslarının uçotu, etibarlı saxlanılması, istismarının təmin olunması və arxivləşdirilməsi, müvafiq Data-mərkəzlərə təhvil verilməsi üçün məsul şəxslər və onların hüquqi məsuliyyəti zəruri normativ-hüquqi sənədlərlə dəqiq müəyyənləşdirilməlidir.

Ölkə, dövlət qurumları və müəssisələr səviyyəsində informasiyalaşdırma proseslərini nəzarətdə saxlamaq, analiz etmək, qiymətləndirmək, müxtəlif təyinatlı monitorinqlər aparmaq məqsədi ilə iyerarik qaydada bütün təşkilatlar üzrə xüsusi statistik formalar işlənilməli, müntəzəm olaraq həmin hesabatlar toplanılmalı və emal olunmalıdır. Bunun da əsasında müəssisələrin fəaliyyətinə qiymət verilməlidir.

Elmi jurnalların beynəlxalq tələblərə cavab verməyən veb-saytları, həmçinin arxivlərdə, çap şəklində olan jurnalları rəqəmsallaşdırılmış İnternet mühitində əlyetərliyi təmin olunmayana qədər Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən onların tanınması məqsədəuyğun sayılmamalıdır.

Biznes qurumları tərəfindən çap olunan kommersiya xarakterli materialların İnternet mühitində açıq istifadəsinin təmin olunması üçün dövlət tərəfindən müəyyən stimullaşdırıcı mexanizmlər işlənib tətbiq olunmalıdır.

**Azərbaycandilli mətnlərin avtomatik emalı problemləri**

İnternet mühitində Azərbaycan dilinin xüsusiyyətlərini özündə əks etdirən zəruri, açıq informasiya resurslarının (lüğətlər və s.) çox məhdud olması istifadəçilərin sorğularına müvafiq olaraq effektli axtarışın aparılmasına imkan vermir. Bu səbəbdən, antiplagiat sistemləri (AS) Azərbaycan dilli onlayn resurslarda öz funksiyalarını yerinə yetirə bilmirlər, yəni plagiatlıq faktlarını aşkarlamaqda böyük çətinliklərlə qarşılaşırlar.

Azərbaycan dili və geniş istifadə olunan xarici dillər arasında mükəmməl kompüter tərcüməsi sistemlərinin olmaması başqa dillərdən qeyri-qanuni olaraq elmi, pedaqoji və s. materialların mənimsənilməsi faktlarını aşkarlamaq xeyli çətinləşir. Azərbaycan dili leksikonunda mövcud olan sözlərarası münasibətləri (hipernim, hiponim və s.) əks etdirən ontoloji strukturların, semantik şəbəkələrin mövcud olmaması mətnlərin avtomatik emalını və bunun da əsasında səmərəli qərarların qəbul edilməsini mümkünsüz edir.

Yuxarıda qeyd olunan səbəblərə görə *text mining* (mətnlərin intellektual analizi), obrazların tanınması, *NLP* (ing. *natural language processing* – təbii dilin emalı) və s. kimi süni intellektə əsaslanan qabaqcıl texnologiyalar azərbaycandilli məntlərin intellektual (morfoloji, sintaktik və semantik) analizi üçün tətbiq oluna bilmir.

Azərbaycan dilinin əlifbası ilə digər dillərin əlifbaları arasında fonetik transformasiyanı təmin edən, Beynəlxalq standartlaşdırma təşkilatı tərəfindən təsdiq olunmuş transliterasiya interfeyslərinin olmaması həm plagiatlıq, həm də digər istiqamətdə böyük problemlər yaradır.

Bu problemləri aradan qaldırmaq üçün kompleks tədbirlərin həyata keçirilməsi zəruridir. İlk növbədə ölkəmizdə ali təhsil sistemində linqvistik informatika ixtisası üzrə kadrlar hazırlanmalıdır. Linqvistik informatika sahəsində aparılan multidissiplinar tədqiqatlara, xüsusən də, mətnlərin intellektual emalı texnologiyalarının yaradılması işlərinə dəstək verilməli, gənc elmi kadrlar yetişdirilməlidir.

İkinci vacib məsələ Azərbaycan dilinin müxtəlif funksiyalarını həyata keçirən açıq elektron informasiya resurslarının yaradılması və İnternet mühitində hamı üçün əlyetərliliyinin təmin olunmasıdır.

Bunlardan başqa, müxtəlif bilik sahələri üzrə terminoloji fəaliyyətin gücləndirilməsi, çap şəklində olan terminoloji lüğətlərin rəqəmsallaşdırılması, www.azterm.az portalının işinin gücləndirilməsi, Milli terminoloji informasiya sisteminin reallaşdırılmasına dəstək verilməsi zəruridir.

Növbəti məsələ kimi, effektli kompüter tərcüməsi sistemlərinin yaradılmasına xüsusi diqqət ayrılması vacibdir.

Nəhayət, transliterasiya interfeyslərinin yaradılması, milli standartların qəbulu, onların beynəlxalq səviyyədə istifadəsini təmin etmək üçün kompleks tədbirlər həyata keçirilməlidir.

## Milli antiplagiat sisteminin yaradılmasına dair konseptual baxışlar

Hal-hazırda ölkəmizdə xarici antiplagiat sistemlərindən (AS) pərakəndə şəkildə istifadə olunur və ümumiyyətlə, onların hər biri haqqında fikirlər, rəylər fərqlidir. Xarici AS-dən asılılıq və kifayət qədər maliyyə resurslarının ölkədən kənara axını problemi vardır.

Plagiatlığa qarşı mübarizə mexanizmlərindən biri də elmi araşdırma prosesinin şəffaflığının təmin olunmasıdır. Bu məqsədlə Azərbaycan Respublikasının Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurası tərəfindən elektron elmin alt sistemləri olan “Elmi problemlər reyestri”, “Dissertasiya mövzularının qeydiyyatı reyestri”, “Elmi hesabatlar reyestri”, “Doktorantlar və dissertantlar reyestri”, “Elmi kadrlar reyestri” və s. kimi açıq onlayn informasiya resurslarının yaradılması və istismarını təmin etmək lazımdır.

Ekspertlərin qənaətinə görə, xarici AS-dən istifadə prosesində toplanmış məlumatların intellektual emalı əsasında hər hansı hədəf seçilmiş ölkədə elmin və təhsilin, tələbə və müəllimlərin, alimlərin mənəvi-etik, hüquq pozuntuları, dinamikası və s. xüsusiyyətləri haqqında analitik biliklər əldə etmək olar. Bu isə ölkənin təhlükəsizliyi üçün müəyyən risklər yaradır.

Xarici AS-dən istifadə zamanı milli maraqlar naminə çoxməqsədli analizlər aparmaq, qiymətləndirmək, tövsiyələr işləmək və səmərəli qərarlar qəbul etmək imkanları yoxdur. Bütün bunları nəzərə alaraq, hesab edirik ki, Milli antiplagiat sisteminin (MAS) yaradılması və tətbiqi daha məqsədəuyğundur.

MAS-a e-dövlətin mühüm seqmentləri olan e-elm və e-təhsilin tərkib hissəsi kimi baxmaq lazımdır. Belə ki, e-dövlətin əsas məqsədləri sırasında idarəçiliyin metod və mexanizmlərinin təkmilləşdirilməsi, səmərəliliyinin artırılması, hesabatlılığın və şəffaflığın təmin edilməsi kimi məsələlər durur. Elm və təhsil sistemlərində elmi fəaliyyətin şəffaflığının və hesabatlılığının təmin edilməsi, qiymətləndirilməsinin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması baxımından MAS effektli texnoloji vasitədir.

Müvafiq dünya təcrübəsinin analizinə əsasən, belə qənaətə gəlmək olar ki, hər hansı bir antiplagiat sisteminin yaradılması, sınaqdan keçirilməsi və təkmilləşdirilməsi üçün müəyyən müddət tələb edilir. Bu baxımdan, MAS-nin yaradılması və müəyyən keyfiyyət səviyyəsinə çatdırılması üçün müəyyən vaxt lazımdır. Ona görə də MAS effektli tətbiq üçün tam hazır olana qədər xarici AS-dən istifadə məqsədəuyğundur.

Ümumiyyətlə, ölkədə AS-in yaradılmasına dair mütəxəssislər arasında iki yanaşma vardır:

- xarici AS-ni Azərbaycan dilinin xüsusiyyətlərini nəzərə alaraq, müvafiq açıq informasiya resurslarını təkmilləşdirmək və geniş tətbiqini təmin etmək;

- beynəlxalq təcrübədən faydalanmaqla ölkənin intellektual, maliyyə və digər potensialı hesabına MAS-ı yaratmaq, istismarı və inkişafını təmin etmək.

MAS-nin yaradılması ilkin halda nisbətən böyük maliyyə resursları tələb etsə də, sonrakı dövrdə bu xərclər xeyli azalacaqdır. Ölkə daxilində vətəndaşlara çox aşağı qiymətə (yaxud da pulsuz) onlayn antiplagiat xidmətləri göstərilə bilər.

MAS yaradılarsa, sistemdə toplanmış məlumatlar əsasında elm və təhsil prosesi, ayrı-ayrı fərdlərin mənəvi-etik, hüquq pozuntuları barədə zəruri biliklər əldə olunacaq, gələcəkdə təşkilatlar (elm, təhsil və s. müəssisələr) və şəxslər barəsində müxtəlif xarakterli qərarlar qəbul edilərkən plagiatlıq əməllərinin də nəzərə alınması məqsədəuyğundur.

Kitabxanalarda, arxivlərdə toplanan dissertasiyalar, monoqrafiyalar, jurnallar və s. rəqəmləşdirilərək İnternet mühitində yerləşdirildikdən sonra MAS elmi dərəcəsi olan şəxslərin dissertasiya işlərini, digər əsərlərini də yoxlayıb plagiatlıq əməllərini aşkarlayaraq ictimaiyyəti məlumatlandırmaq imkanına malik olacaqdır.

MAS tələbələrin, müəllim və alimlərin, digər bilik yaradıcılığı ilə məşğul olan şəxslərin müəllifi olduqları materiallarda aşkarlanmış plagiatlıq faktlarının qeydiyyatını, uçotunu aparıb sistemləşdirərək ayrı-ayrı şəxslər (alimlər, tələbələr və s.) və müəssisələr üzrə elektron plagiatlıq reyestrləri yaratmağa imkan verəcəkdir.

MAS istismara verildikdən sonra xarici ölkələrdəki bədniyyətli qüvvələrin ölkəmizdə formalaşan biliklər cəmiyyətinin, onun sosial seqmentləri (elm, təhsil müəssisələri və s.), həmçinin ayrı-ayrı vətəndaşların intellektual cinayətləri haqqında məlumat toplamaq və analitik biliklər əldə etmək imkanı olmayacaqdır.

MAS veb-platformasında kliyent/server texnologiyası əsasında fəaliyyət göstərəcək sosio-texnoloji infrastruktura malik bir sistem kimi istismar olunacaqdır. Bu sistem istismara verildikdən sonra qlobal səviyyədə, virtual məkanda plagiatlığa qarşı səmərəli mübarizə aparmaq məqsədi ilə xarici ölkələrin AS-i, İnternetdə mövcud olan axtarış sistemləri ilə əməkdaşlıq münasibətləri qurula bilər (İnterpol modeli).

MAS-nin konseptual, arxitektur-texnoloji əsaslarının işlənilməsi, toplanacaq informasiyanın intellektual analizi (*Big Data* analitikası), təhlükəsizliyinin təmin olunması, həssas fərdi məlumatların qorunması, mükəmməl kompüter tərcüməsi sistemlərinin işlənilməsi, dissertasiya və digər elmi əsərlərin müəlliflərinin identifikasiyası və s. kimi elmi tutumlu problemlərin həlli üçün geniş tədqiqatlar aparılması, gənc kadrların yetişdirilməsi vacibdir.

MAS-nin yaradılması, istismarı və daim təkmilləşdirilməsi, inkişafı məqsədi ilə fəaliyyət planının işlənilməsinə ehtiyac vardır. Eyni zamanda, MAS-a dövlət əhəmiyyətli informasiya sistemi statusunun verilməsi və bu məqsədlə müvafiq normativ-hüquqi sənədlərin hazırlanması zəruridir.

MAS-ın yaradılması, istismarı və inkişafının dəstəklənməsi məqsədi ilə bütün mərhələlər üzrə həyata keçiriləcək işlərin maliyyələşdirilməsinə, eyni zamanda, xarici AS-in servislərindən istifadə etmək üçün elm və təhsil müəssisələrinə maliyyə dəstəyi göstərilməsinə ehtiyac vardır.

MAS-ın yaradılmasına dair fəaliyyət planında nəzərdə tutulmuş işlər, həmçinin maddi-texniki təminat üzrə texniki-iqtisadi araşdırmalar aparıb tələb olunan xərclər və onların maliyyələşdirilməsi üçün mənbələr müəyyənləşdirilməlidir.

Xarici AS-in servislərindən istifadə olunması üçün ilkin qiymətləndirmələrə əsasən, elm və təhsil müəssisələrinə hər il müəyyən maliyyə vəsaitinin nəzərdə tutulması məqsədəuyğundur. Bu sahədə aparılan elmi araşdırmalara da maliyyə dəstəyinin göstərilməsi vacibdir.

**Plagiatlığa qarşı hüquqi mübarizə məsələləri**

Plagiatlıqla mübarizə metodlarından biri hüquqi mübarizədir. Müasir beynəlxalq hüquq təcrübəsində plagiatlıq müəllif hüququnun pozulması hallarından biri kimi qəbul olunur. Lakin Azərbaycanın bu sahədə ictimai münasibətləri tənzimləyən "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" qanunda və "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" qanunda plagiatlıqla bağlı məsələlər öz əksini tapmayıb [7, 8].

Bununla belə, “Elm haqqında” qanunda plagiatlıqla bağlı müəyyən müddəalar mövcuddur [3]. Bu qanunun “Elmi etika və əqli mülkiyyət hüququnun qorunması” adlı 29-cu maddəsində “özgəsinə məxsus mətnin, əsərin, elmi məhsulun müəllifin icazəsi olmadan və ya yazılı istinad vermədən istifadəsi”, “müəlliflərin dəyişdirilməsi və ya şərikli müəlliflik hüququnun pozulması”, “müəlliflik hüququnun pozulması – elmi plagiat” kimi hallar qanun pozuntusu kimi təsbit edilib. Müvafiq normativ-hüquqi aktda qeyd edilir ki, bu cür qanun pozuntularına görə cinayət, inzibati və mülki məsuliyyət nəzərdə tutulur. Lakin ölkənin müvafiq qanunvericilik aktlarında konkret olaraq plagiatlığa görə cinayət, inzibati və mülki məsuliyyət məsələləri müəyyənləşdirilməyib.

Azərbaycanda plagiatlıqla bağlı hüquqi baxımdan qeyri-müəyyənliklər mövcud olduğuna görə məhkəmələr tərəfindən bu qanun pozuntusuna görə qərar vermək çox çətindir. Ona görə də ölkəmizdə plagiatlıq əməllərinə hüquqi qiymətin verilməsi hallarına rast gəlinmir. Müvafiq qurumlarda da plagiatliq sahəsində beynəlxalq hüquqi təcrübənin öyrənilməsi istiqamətində elmi araşdırmalar aparılmır.

Qeyd etmək lazımdır ki, dünyanın bir sıra ölkələrində plagiatlıqla mübarizəyə dair zəruri qanunvericilik bazası formalaşdırılmışdır. Həmin ölkələrin qanunvericiliyində plagiatlıq “dələduzluq”, “saxtalaşdırma” və s. cinayət əməli kimi tövsiv olunaraq, buna görə cərimə, icbari işlər və ya azadlıqdan məhrumetmə kimi cəza növləri nəzərdə tutulur. Bundan başqa, müəllif hüquqlarının qorunmasının plagiatlıq edəndən dəyən ziyanın əvəzini və ya kompensasiya ödəmək tələbini irəli sürmək kimi mülki-hüquqi metodu da tətbiq olunur [9-12]. Azərbaycan qanunvericiliyində də plagiatlıq əməllərinə görə bilavasitə bu cür hüquqi məsuliyyət tədbirlərinin nəzərdə tutulması zəruridir. Bu sahədə uğurlu təcrübəsi olan ölkələrin qanunvericiliyindən istifadə edilməsi də məqsədəuyğundur.

Plagiatlıqla effektli hüquqi mübarizə aparmaq üçün vacib olan məsələlərdən biri də müvafiq kadr təminatının həyata keçirilməsidir. Azərbaycan qanunvericiliyində bilavasitə plagiatlıqla mübarizə tədbirləri nəzərdə tutulmadığına görə, ölkəmizdə bu sahədə istintaq, məhkəmə-ekspertiza təcrübəsi də demək olar ki, mövcud deyil. Müvafiq ali məktəblərdə sırf bu sahə üzrə mütəxəssislər də hazırlanmır. Ona görə də plagiatlığın elmi-nəzəri, texniki, hüquqi, etik və s. aspektlərini əhatə edən biliklərə malik mütəxəssislər hazırlanmalıdır ki, onlar da, öz növbəsində, ali məktəblərdə müvafiq fənni tədris etsinlər. Bu sahədə qabaqcıl xarici təcrübənin öyrənilməsi vacibdir.

Plagiatlıqla hüquqi mübarizəni çətinləşdirən əsas problemlərdən biri bu cür əməllərin qlobal xarakterli və ya miqyaslı olmasıdır. Yəni İnternetin yaratdığı qlobal virtual mühitdə plagiatlığı törədənlə plagiatlığa məruz qalan müxtəlif ölkələri təmsil edə bilərlər. Dünyanın ayrı-ayrı ölkələrində isə plagiatlığa münasibət fərqlidir. Bəzi ölkələrdə plagiatlığa qarşı sərt hüquqi mübarizə tətdbirləri nəzərdə tutulsa da, bu əmələ loyal münasibət bəsləyən ölkələr də az deyil. Hətta plagiatlıqla hüquqi mübarizə aparan ölkələrin də bu məsələdə mövqeləri üst-üstə düşmür. Belə ki, ayrı-ayrı ölkələrdə plagiatlığın hüquqi anlayışı və təsnifatı fərqli şəkildə təsbit edilib. Bu sahədə vahid beynəlxalq hüquqi standartlar mövcud deyil. Belə bir vəziyyətdə plagiatlıqla beynəlxalq miqyasda hüquqi mübarizə aparmaq praktiki olaraq qeyri-mümkündür. Bu problemdən çıxış yolu plagiatlıqla mübarizə sahəsində xüsusi beynəlxalq konvensiyanın qəbul edilməsi və müvafiq qarşlıqlı hüquqi yardım haqqında ikitərəfli dövlətlərarası müqavilələrin bağlanmasıdır.

Bir sıra xarici ölkələrin ali təhsil müəssisələrinin və elmi tədqiqat institutlarının əsasnamələrində, həmçinin etika kodekslərində plagiatlıqla bağlı məsələlər, xəbərdarlıqlar öz əksini tapıb. Yəni həmin sənədlərdə plagiatlıqla bağlı xəbərdarlıqlar, onun nəticələrinin hansı məsuliyyəti yaratması ilə bağlı bəndlər yer alır. Ölkəmizdə də elmi tədqiqat və ali təhsil müəssisələri üçün plagiatlıq məsələlərinin əks olunduğu etika kodekslərinin hazırlanmasına ehtiyac vardır.

**Plagiatlıq əməllərinin ictimailəşdirilməsi məsələləri**

Plagiatlıqla effektli mübarizə üsullarından biri də bu cür əməllərin ictimailəşdirilməsi, ictimai qınaq obyektinə çevrilməsinin təşkilidir. Cəmiyyətin aşağı təbəqələrini təmsil edən insanlar tərəfindən törədilən məişət xarakterli cinayət əməllərinə görə bu cür üsullardan istifadə

edilməsi effektli nəticə vermir. Çünki belə şəxslərin itirəcəkləri ictimai nüfuzları, karyeraları yoxdur. Plagiat elmi iş ortaya qoyanlar isə, adətən, cəmiyyətin yüksək təbəqəsinə aid olan, müxtəlif karyera hədəfləri olan insanlar olur. Ona görə də plagiatlıq edən insanların bu əməllərinə görə rüsvay edilmələri olduqca böyük effekt verir.

Müasir dünya təcrübəsində bu üsuldan geniş istifadə edilir. Məsələn, 2012-ci ildə Macarıstan prezidenti Pal Şmittin yazdığı elmi işin plagiat olduğu aşkar olunduqdan sonra KİV tərəfindən ictimailəşdirilmişdi [13]. Bundan dərhal sonra, o, rüsvay edildiyinə görə vəzifəsindən istefa vermişdir. Eyni aqibətlə 2011-ci ildə Almaniyanın xarici işlər naziri Karl-Teodor Quttenberq, 2013-cü ildə isə həmin ölkənin təhsil naziri Anna Şavan üzləşərək, vəzifələrindən könüllü şəkildə imtina etmişdilər [14-15]. Yəni hər 3 halda plagiatçıların hüquqi məsuliyyətə cəlb edilməsi istiqamətində addım atılmamışdır. Sadəcə, əməllərinin ictimailəşdirilməsi onları elmi dərəcələrindən, vəzifələrindən məhrum etmiş, siyasi karyeralarına son qoyulmuşdur. Bu, cəmiyyətin yüksək təbəqəsində aid olanlar, ictimai-siyasi və elm xadimləri üçün kifayət qədər ciddi cəza metodudur.

Hesab edirik ki, ölkəmizdə də bu üsul tətbiq edilə bilər. Plagiatlıq əməlləri tam sübut olunduğu hallarda müvafiq dövlət qurumları (Ali Attestasiya Komissiyası, məhkəmə orqanları və s.) tərəfindən ictimaiyyətə rəsmi məlumat verilməsi məqsədəuyğundur. Bundan sonra plagiatlığa əl atan şəxslər haqqında məlumatlar müntəzəm olaraq KİV-də, sosial media resurslarında yayıla bilər. Bu fəaliyyət ilə məşğul olan şəxslər ictimai qınaq, məzəmmət obyektinə çevrilməlidirlər.

Müvafiq dövlət qurumları tərəfindən mütəmadi olaraq fərdlər və onların mənsub olduğu təşkilatlar da göstərilməklə plagiatlıq əməlləri ümumiləşdirilərək "qara siyahılar", "reytinqlər" formasında ictimaiyyətə məlumat verilməsi çox effektli təsirə malik ola bilər.

Bu məqsədlə xüsusi portal (məsələn: www.plagiatayox.az) yaradıb plagiatlıq, səbəbləri, növləri, onunla mübarizə texnologiyaları, aşkarlanmış faktlar və s. kimi məlumatların ictimaiyyətə təqdim olunması məqsədəuyğundur. Həmçinin televiziya kanallarında, İnternet saytlarında, ictimai yerlərdə, elm-təhsil müəssisələrində plagiatlıqla mübarizə məqsədi daşıyan sosial reklam çarxları nümayiş etdirilməsi də effektli bir vasitədir.

Bu sahədə qabaqcıl ölkələrin təcrübəsinin öyrənilərək tətbiq edilməsi və həmin ölkələrin müvafiq qurumları ilə əməkdaşlıq münasibətlərinin qurulması zəruridir.

Ümumiyyətlə, insanlara bir həqiqət təlqin olunmalıdır ki, bütün növ məlumatlar (dissertasiyalar, monoqrafiyalar və s.) rəqəmləşdirildikdən sonra İnternet mühitində açıq, əlyetərli olacaq və deməli, nə vaxtsa edilmiş plagiatlıq AS tərəfindən gec-tez aşkarlanacaq və yayılacaqdır. Bu cür təbliğat vasitələri və kampaniyalarından effektli şəkildə istifadə edilərsə, ölkəmizdə plagiatlıq faktlarının sayı kəskin şəkildə azala bilər.

## Plagiatlıq və onunla mübarizə yolları haqqında biliklərin tədrisi

Plagiatlığın baş vermə səbəblərindən biri də bu əməli törədənlərin onun barəsində məlumatsız olmalarıdır. Hal-hazırda ölkəmizdə plagiatlığın meydana gəlməsi səbəbləri, növləri, antiplagiat mexanizmləri, bu əməllərin yaratdığı mənəvi-etik və hüquqi məsuliyyət və s. haqqında biliklər təhsilin heç bir pilləsində tədris olunmur.

Plagiatlığa qarşı mübarizə texnologiyaları, mexanizmləri, antiplagiat sistemləri haqqında hədəf auditoriyasına, ümumiyyətlə, vətəndaşlara zəruri biliklər verilməlidir. Plagiatlıq əməllərinin yaratdığı mənəvi-etik və hüquqi məsuliyyət haqqında vətəndaşlar maarifləndirilməlidirlər [16].

Orta və ali təhsil səviyyələrində plagiatlıq və ondan qaçmaq yolları barədə biliklərin verilməsi vacibdir. Belə ki, orta məktəbdə şagirdlərə inşa, ali məktəbdə isə tələbələrə kurs işi, diplom işi kimi yaradıcı yazı qabiliyyəti aşılanır. Təhsilin magistratura səviyyəsində isə gənclərə elmi tədqiqat aparmaq, elmi iş yazmaq bacarıqları aşılanmalıdır. Bu zaman onlara antiplagiat davranışlarının aşılanması da zəruridir.

Azərbaycan dilində bu sahə üzrə dərsliklər və digər öyrədici vasitələr mövcud deyil, həmin bilikləri tədris edəcək müəllimlər də hazırlanmır. Magistratura və doktorantura təhsil səviyyələrində "Plagiatlıq və onunla mübarizə yolları" adı altında sistemli biliklərin tədris

olunması vacibdir. Bunun üçünsə, ilk növbədə, dərsliklər, metodiki vəsaitlər hazırlanmalı, müvafiq dərsləri tədris edəcək müəllimlər yetişdirilməlidir.

Əslində, tədqiqatçını plagiatlıq əməlinə sövq edən ən mühüm səbəblərdən biri də onların elmi tədqiqat aparmaq, elmi iş yazmaq bacarıqlarının olmamasıdır. Ona görə də ali təhsil müəssisələrində bu bacarıqların aşılanmasına diqqət artırılmalıdır. Bunu da plagiatlıqla mübarizə yollarından biri kimi qəbul etmək lazımdır.

*Springer*, *Elsevier* və s. nüfuzlu akademik nəşrlər müəlliflər üçün plagiatlığın mahiyyətini anladan və ondan qaçmaq üçün təlimatlar hazırlayıblar [17, 18]. Bu cür nəşrlərdə müəlliflərə tövsiyə olunur ki, elmi əsərdə istifadə olunan başqasına məxsus istənilən frazanın mənbəyinə istinad olunsun və istinadlar minimuma endirilsin.

Hesab edirik ki, Azərbaycanda nəşr olunan elmi jurnallarda da plagiatlığın mahiyyəti, məsuliyyəti barədə məlumatların yerləşdirilməsi, həmçinin jurnallara təqdim edilən məqalələrin AS vasitəsi ilə yoxlanması Ali Attestasiya Komissiyası tərəfindən məcburi şərt kimi qoyulmalıdır.

**Plagiatlığa yol açan əsas sosial-psixoloji amillər**

Plagiatlıqla effektli mübarizə aparmaq üçün insanları bu əmələ sövq edən sosial-psixoloji amillərin müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir. Hüquqi və texnoloji vasitələr bu sahədə nəticələrin aradan qaldırılmasına xidmət edir. Lakin plagiatlığın yaranma səbəbləri ilə mübarizə problemin həlli üçün daha effektli ola bilər.

Müxtəlif ölkələrdə plagiatlığın universal və spesifik motivləri mövcuddur. Plagiatlıq əməlləri, əsasən, insanların müxtəlif məqsədlərə çatmaq üçün elmi dərəcə statusundan vasitə kimi istifadə etmək istəklərindən irəli gəlir. Azərbaycanda plagiatlığın əsas motivlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. *İmtiyazlardan bəhrələnmək.* Azərbaycanda elmi dərəcəsi olan şəxslər üçün qanunvericiliklə müəyyən edilmiş bir sıra imtiyazlar mövcuddur: hərbi xidmətdən azad olma, vəzifə maaşlarına əlavələr, güzəştli mənzil əldə etmək hüququ, əmək pensiyasına əlavələr və s. Bu cür imtiyazları əldə etmək üçün elmi dərəcə almaq istəkləri də plagiatlığı stimullaşdıran amillər sırasındadır.

2. *Karyera.* Ölkəmizdə insanlar müxtəlif dövlət və ya özəl sektorda vəzifəyə irəli çəkilərkən elmi dərəcə üstünlük kimi nəzərə alınır. Ona görə də, əslində elmlə məşğul olmaq məqsədləri olmayan müəyyən insanlar elmi dərəcə almağı karyera yüksəlişi üçün bir vasitə kimi dəyərləndirirlər. Bu, ölkəmizdə plagiatlığı stimullaşdıran mühüm amillərdən biridir.

3. *Reklam-marketinq.* Azərbaycan cəmiyyətində elmi dərəcəsi olan şəxlərə qarşı yüksək inam, etimad mövcuddur. Ona görə də bəzən daha çox pasiyent cəlb etmək istəyən həkim, yaxud abituriyent cəlb etmək istəyən müəllim-repetitor bunun üçün elmi dərəcəyə bir effektli vasitə kimi baxır. Müşahidələr göstərir ki, bu amil ölkəmizdə plagiatlığı stimullaşdıran digər mühüm amildir.

4. *Şöhrətpərəstlik.* Bəzən heç bir karyera iddiası, reklam-marketinq hədəfi olmayan insanlar da, sadəcə, özünə qarşı ehtiram göstərilməsi üçün elmi dərəcə almaq iddiasına düşürlər. Məsələn, ölkəmizdə evdar qadınların, ticarətlə, şou-bizneslə məşğul olan şəxlərin elmi dərəcə almalarını bu motivlə izah etmək olar. Bu da yenə Azərbaycan cəmiyyətində elmi dərəcəsi olan insanlara göstərilən münasibətin təzahürüdür ki, plagiatlığa yol açan əhəmiyyətli amil kimi qiymətləndirilə bilər.

Birinci halda, problemin kökündə rəsmi imtiyazlardan istifadə məqsədləri kimi sosial amil dayanır. Bu cür problemləri yaradan səbəbi – imtiyazları aradan qaldırmaq mümkün deyil. Çünki müvafiq imtiyazlar elmi fəaliyyəti stimullaşdırmağa, alimlərin sosial vəziyyətini yaxşılaşdırmağa və son nəticədə ölkədə biliklər iqtisadiyyatının inkişafına xidmət edir. Bu problemin həlli texnoloji nəzarət və hüquqi mübarizə tədbirlərinin gücləndirilməsini tələb edir.

Digər üç halda isə problemin kökündə sosial məqsədlərlə yanaşı, psixoloji amillər də dayanır. Yəni sosial məqsədləri olan şəxslər cəmiyyətin psixoloji durumundan sui-istifadə edirlər. Yəni bu cür hallarla effektli mübarizə üçün hüquqi və texnoloji vasitələr yetərli deyil, həmçinin ictimai rəyin

dəyişdirilməsi tələb edilir. Yəni cəmiyyətdə belə bir rəy formalaşmalıdır ki, elmi dərəcə heç də səriştəli menecer, bacarıqlı mütəxəssis, yaxud hörmətli insan olmağın göstəricisi deyil.

**Nəticə**

Beləliklə, bu nəticəyə gəlmək olar ki, plagiatlıqla mübarizəyə dair irəli sürülən ideyaların, konseptual baxışların aidiyyatı qurumların iştirakı ilə geniş müzakirə olunması və müəyyən bir konsensusun əldə edilməsi vacibdir. Müzakirələrin nəticəsi olaraq aiddiyyati qurumların mütəxəssisləri tərəfindən “Azərbaycan Respublikasında plagiatlığa qarşı mübarizə sahəsində milli fəaliyyət planı”nın işlənilməsinə ehtiyac vardır.

Milli fəaliyyət planında görüləcək işlər, vəzifələr, icraçılar, icra müddəti, maliyyə resurları müəyyənləşdirilməlidir. Bu planın icrasını təmin etmək məqsədi ilə icraçı qurumların məsul vəzifəli şəxslərindən ibarət Koordinasiya şurası və bu şuranın nəzdində müxtəlif problemlər (texnologiya, linqvistika, kontent, hüquq və s.) üzrə işçi qruplar təşkil olunmalıdır.

Milli fəaliyyət planı üzrə görülən işlərin fasiləsiz menecmentini həyata keçirmək üçün Koordinasiya şurasının tərkibində daimi fəaliyyət göstərən İcra qrupu yaradılmalıdır. Yaradılması nəzərdə tutulan MAS-nin istismar və inkişafını təmin edəcək təşkilat müəyyənləşdirilməli və həmin qurumda əvvəlcədən hazırlıq işləri görülməlidir.

***Minnətdarlıq:*** *Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir* ***– Qrant № EİF-BGM-4-RFTF-1/2017-21/8/1***

**Ədəbiyyat**

1. Əliquliyev R.M., Mahmudov R.Ş. İnformasiya cəmiyyətində intellektual mülkiyyət hüquqlarının qorunması problemləri // İnformasiya cəmiyyəti problemləri, Bakı, 2015, №2, c. 4-14.
2. Əliquliyev R.M, Ağayev N.B., Alıquliyev R.M. Plagiatlıqla mübarizə texnologiyaları. Bakı, “İnformasiya Texnologiyaları” nəşriyyatı, 2015, 165 s.
3. “Elm haqqında” Azərbaycan Respublikasının Qanunu, 14 iyun 2016-cı il, http://www.science.gov.az/uploads/PDF/Elm_haqqinda_Azerbaycan_Respublikasinin_Qanunu.pdf
4. Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı, 9 aprel, 2013-cü il, https://president.az/articles/7744
5. “Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya”, 2 aprel 2014-cü il, http://www.president.az/articles/11312
6. Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016–2020-ci illər üçün Dövlət Proqramı, http://www.mincom.gov.az/upload/files/527d9c1b595f4eb8144ea81525dae30e.PDF
7. “Müəllif hüququ və əlaqəli hüquqlar haqqında” AR Qanunu, http://www.copat.gov.az
8. Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” AR Qanunu, http://www.copat.gov.az
9. Jooste C. The Plagiarist on Trial – a legal perspective on plagiarism, 2018, 2 Aug., 2018, http://www.blogs.sun.ac.za
10. Coble C. Is Plagiarism a Crime? 2015, november 6, https://www.linkedin.com/in/christopher-coble-35a84783
11. Бобкова О.В., Давыдов С.А., Ковалева И.А., Плагиат как гражданское правонару-шение // Патенты и лицензии, 2016, № 7, с. 31.
12. Плагиат: статья 146 УК РФ, http://ugolovnyi-expert.com/chto-takoe-plagiat-st-146-uk-rf/
13. Hungarian President Resigns Amid Plagiarism Scandal, https://www.nytimes.com
14. German defence minister resigns in PhD plagiarism row, https://www.theguardian.com
15. Education minister loses doctorate for plagiarism, https://www.thelocal.de/20130205/47785

16. Левин В.И. Плагиат, его сущность и борьба с ним // Высшее образование в России, 2018, № 1, с. 143-150.
17. Elsevier, Plagiarism complaints, https://www.elsevier.com/editors/perk/plagiarism-complaints
18. Springer, Plagiarism, https://www.springer.com/gp/authors-editors

**УДК 004.04**

**Алгулиев Расим М.[1], Алыгулиев Рамиз М.[2], Махмудов Расим Ш.[3]**
[1,2,3]Институт Информационных Технологий НАНА, Баку, Азербайджан
[1]r.alguliev@gmail.com, [2]r.aliguliyev@gmail.com, [3]rasimmahmudov@gmail.com

**Проблемы борьбы с плагиатом в Азербайджане и пути их решения**

Статья посвящена проблемам борьбы с плагиатом в Азербайджане. Для решения этих проблем, прежде всего, обоснована необходимость формирования национального электронного контента и создания национальной системы антиплагиата. Приняты важные меры для формирования соответствующего контента. Предложена концептуальная модель национальной системы антиплагиата. Разработаны рекомендации по применению правовых, просветительских методов и методов общественного осуждения борьбы с плагиатом. Проанализированы социально-психологические факторы, которые привели к плагиату в нашей стране, и приведены методы их решения.

***Ключевые слова:*** *авторское право, плагиат, национальная система антиплагиата, национальный контент.*

**Rasim M. Alguliyev[1], Ramiz M. Aliguliyev[2], Rasim Sh. Mahmudov[3]**
[1,2,3]Institute of Information Technology of ANAS, Baku, Azerbaijan
[1]r.alguliev@gmail.com, [2]r.aliguliyev@gmail.com, [3]rasimmahmudov@gmail.com

**Anti-plagiarism problems in Azerbaijan and their solution ways**

The article highlights the anti-plagiarism problems in Azerbaijan. First of all, the need for shaping the national electronic content and establishing a national anti-plagiarism system is justified. Relevant actions are required to form the appropriate content. A conceptual model of the national anti-plagiarism system is proposed. The recommendations on the application of legal, public awareness and propagation methods of anti-plagiarism are put forward. Socio-psychological factors that have led to plagiarism in Azerbaijan are analyzed and methods of their solution ways are shown.

***Keywords:*** *copyright, plagiarism, national anti-plagiarism system, national content.*